*Yeni nəşr*

# FİRƏNGİZ ƏLİZADƏNİN "AZƏRBAYCAN SİMFONİK MUSİQİSİ (MONODİYADAN SİMFONİK ORKESTRƏ)" KİTABI DƏYƏRLİ ELMİ-TƏDQİQAT ƏSƏRİ KİMİ

*Aytən BABAYEVA*

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar incəsənət xadimi, Xalq artisti, professor, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, "Şöhrət" və "Şərəf" ordenli sənətkar, UNESCO-nun yüksək "Sülh artisti" mükafatına ("Artist for the Pease") və Beynəlxalq "Aga Khan" Fondunun "Aga Khan Music Awards-2019" fəxri tituluna layiq görülmüş dünya şöhrətli Azərbaycan bəstəkarı, pianoçu, dirijor Firəngiz Əlizadə geniş və hərtərəfli fəaliyyət sahəsinə malikdir. F.Əlizadə Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən "Muğam Aləmi" Beynəlxalq Musiqi Festivallarından beşinin bədii rəhbəri olub. F.Əlizadə Azərbaycan Bəstəkarlar İttifaqının layihəsi əsasında Şəki şəhərində artıq 12 dəfə keçirilən "İpək yolu" Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri, eyni zamanda "Üzeyir dünyası" layihəsinin koordinatoru və ilk dəfə Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi S.Ağayeva ilə birgə hazırladıqları (rus dilində) "Azərbaycan Muğam Ensiklopediyası" Azərbaycan mədəniyyətinə dəyərli töhfələrdir və bu istiqamətdə öz fəaliyyət sferasını davam etdirir. Firəngiz xanımın ilk növbədə ictimai fəaliyyətini vurğulamağımız heç də təsadüfi deyildir. Belə ki, zəngin yaradıcılığı ilə yanaşı, F.Əlizadə eyni zamanda Azərbaycanın musiqi-ictimai həyatında fəal və məhsuldar çalışır. Bu fəaliyyəti onun ilk yaradıcılıq dövrlərindən başlayaraq daha da genişlənib. O, bir neçə ilklərə imza atıb. Belə ki, 1986-1991-ci illərdə Bakıda ilk dəfə keçirlən "Müasir Musiqi Festivalı"nın təşkilatçılarından və pianoçu olaraq, bir sıra yeni əsərlərin ilk ifaçısı məhz F.Əlizadə olmuşdur.




Sadalananlar F.Əlizadənin geniş və hərtərəfli fəaliyyətinin yalnız bir hissəsinə xas olan cəhətləri əks etdirir. Belə ki, müasir dövrün aparıcı bəstəkarı olan F.Əlizadə eyni zamanda pedaqoji və tədqiqatçılıq fəaliyyəti ilə məşğul olur. Gözəl nitq qabiliyyətinə malik natiq və mühazirəçi olan F.Əlizadənin dərin məntiqə əsaslanan fikirlərini dinləmək üçün dünyanın bir çox ölkələrində onun ustad dərsləri təşkil olunur.

F.Əlizadənin ustad dərsləri hər zaman böyük maraqla qarşılanır. Belə ki, 2013-cü ildə onun Avropada - Almaniyanın Berlin şəhərində keçirdiyi ustad dərslərinə dünyanın müxtəlif ölkələrindən - ABŞ, İngiltərə, Fransa, Çexiya, Polşa, İsraildən bir sıra gənc bəstəkarlar toplaşmışdılar. Bu ustad dərsinə olan dəvətnamədə F.Əlizadənin adı "*müasir musiqinin ən parlaq nümayəndəsi olan görkəmli bəstəkar*" kimi qeyd edilmişdi. Bəstəkar buradakı ustad dərslərini çox maraqlı diskussiya şəklində tərtib edirdi. Maraqlıdır ki, həmin ustad dərslərinin keçirildiyi vaxtda Almaniya Televiziyasında 4 seriyalı Amerika istehsalı olan bədii-sənədli film nümayiş etdirilirdi. "The War" ("Müharibə") adlanan bu filmdə F.Əlizadənin musiqisi səslənirdi.

Dünya musiqiçiləri F.Əlizadənin yaradıcılığını müxtəlif obrazlı ifadələrlə səciyyələndirirlər. Bəziləri onu Qərbdə müasir klassik musiqi sahəsində böyük uğurlar qazanmış müsəlman aləminin yeganə nümayəndəsi adlandırırlar (Doktor Hans Sikorski). Bəstəkarın adı XX əsr musiqisinə böyük yeniliklər gətirmiş A.Şönberq, A.Berq, C.Keydj, O.Messian, D.Şostakoviç, V.Lyutoslavski kimi bəstəkarlarla bir sırada çəkilir. Onu hətta öz ölkəsinin "mədəniyyət səfiri" adlandırırlar, onun əsərləri dünyanın ən tanınmış ifaçıları - Mstislav Rostropoviç, Hillari Hahn, Yo-Yo Ma, Evelin Qlenni, Yulius Berger, eləcə də ən məşhur orkestr və ansambllar tərəfindən ifa edilir.

Bütün bu cəhətləri ilə yanaşı, Firəngiz xanım həm də bacarıqlı musiqişünas-alimdir. O, 1994-cü ildə "Azərbaycan bəstəkarlarının simfonik musiqisində orkestr üslubunun formalaşması" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Onun 1998-ci ildə dərc edilən "Azərbaycanın simfonik musiqisi" adlı kitabında isə elmi-tədqiqat işində apardığı araşdırmalar, əldə etdiyi qənaətlər öz əksini tapmışdır. F.Əlizadənin musiqişünas kimi fəaliyyətini yazdığı yüksək dəyərli elmi işi, kitabları, dövri mətbuatda nəşr olunan çoxsaylı məqalələri təsdiqləyir. Bunların içərisində F.Əlizadənin ön səhifəsində "Görkəmli müəllimim - Qara Qarayevin əziz xatirəsinə" sözləri yazılan "Qara Qarayev" adlı kitabını xüsusilə vurğulamaq lazımdır.

F.Əlizadənin müəllimi haqqında fikirləri onun yaradıcılıq yolunun əsas qayəsini təşkil edir: *"Qara Qarayev bizim həm mənəvi atamız, həm də gözəl müəllimimiz idi. Hər hansı bir tələbəni yaxından tanımaq üçün Qara Qarayevin onu üzünə baxması kifayət edərdi. Bu adam əsl psixoloq idi. Onun həyatı ilə pedaqoji prinsipləri vəhdət təşkil edirdi"*.

F.Əlizadə Azərbaycan musiqi mədəniyyətinin təşəkkülü və inkişafında, musiqimizin dünyaya tanıdılmasında müəllimi Qara Qarayevin ənənələrini layiqincə davam etdirən bir sənətkardır. Bu baxımdan F.Əlizadənin bu günlərdə nəşr olunan "Azərbaycan simfonik musiqisi (Monodiyadan simfonik orkestrə)" kitabında bəstəkarın elmi-nəzəri səpkidə tədqiqatları və müxtəlif məqalələri toplanmışdır. Kitabda F.Əlizadə elmi işin problemlərinə kökündən bələd olan bir musiqişünas kimi, Azərbaycan musiqi tarixini konkret faktlara əsaslanaraq tədqiq edir. F.Əlizadənin irəli sürdüyü mövzulara və əldə etdiyi qənaətlərə dərindən yanaşması Azərbaycan musiqisi tarixinin öyrənilməsində yeni mərhələni təşkil edir. Belə ki, F.Əlizadə bu kitabda Azərbaycan simfonik musiqisinin tədqiqinə yeni rakursdan yanaşaraq, onu müasir dünya musiqisi müstəvisində araşdırır.

Təqdim olunan kitabda F.Əlizadənin Azərbaycan musiqisinin dərin köklərinə əsaslanaraq, monodiyadan simfonik musiqiyə qədər yüksələn zəngin inkişaf yolunu əks etdirən araşdırmaları ilə yanaşı, həm də müxtəlif mövzulu elmi məqalələrindən də bəhs edilir. Daha geniş şəkildə ifadə etsək, bu kitab F.Əlizadənin ənənə və müasirliyin qovuşmasına əsaslanan elmi biliklərinin və parlaq xatirələrinin məcmusudur.

Kitabın ön sözündə Firəngiz Əlizadənin zəngin fəaliyyətini şərh edən Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, professor Həcər Babayeva yazır: *"Dünyanın hansı yerində olursa olsun, müasir Azərbaycan musiqisi deyəndə, ilk ağıla gələn isim məhz Firəngiz Əlizadə adı və musiqisi olur. Onun haqqında çox yazılıb, çox deyilibdir. Qərb mətbuat səhifələri Firəngiz Əlizadə haqqında yazılarda bəstəkarın yaradıcılığını olduqca yüksək dəyərləndirib, onun adını Azərbaycanın brendinə çevirmişlər"*.

Təqdim olunan kitab üç fəsildən ibarətdir. Fəsillərin hər birində F.Əlizadənin Azərbaycan musiqisinə dair əsaslandırılmış fikirləri öz həllini tapmışdır.

Kitabın "Giriş" bölməsində F.Əlizadə öz düşüncələrinin elmi izahını verərək, iki aləmin - Şərq və Qərb qovuşmasının, musiqi təfəkkürünün iki sisteminin xüsusiyyətlərinin bir-birinə nüfuz etməsini bir çox səviyyələrdə (intonasiya, ritm, harmoniya, tembr, formanın inkişaf yolları və dramaturgiya) işıqlandırmışdır.

"Qaynaqlarda" adlanan birinci fəsildə F.Əlizadə Şərqlə Qərbin musiqi yaradıcılığının daim hərəkətdə olan mübadiləsində simfonik orkestrin rolunu vurğulayaraq, onun inkişaf mərhələlərini ardıcıl şəkildə Qərbi Avropa və rus bəstəkarlarının yaradıcılığında, daha sonra XX əsrin müasir təmayülləri kontekstində araşdırmış və məntiqi yanaşmalarını Azərbaycan bəstəkarlarının özünəməxsus orkestr üslubunun xüsusiyyətlərinin izahına yönəltmişdir. Bu fəsildə F.Əlizadə Azərbaycan simfonik musiqisinin inkişafı ilə bağlı belə bir fikri vurğulayır: *"Təsadüfi deyildir ki, tarixən monodik ənənə ilə bağlı olmuş bəstəkarlar, tədricən orkestrin materialına tembr-faktura həllinin seçiminə müstəqil və özünəməxsus tərzdə yanaşırlar. Bununla Şərqin şifahi peşəkar və folklor yaradıcılığının bədii sistemlərinin, yeni milli simfonik məktəblərinin bəstəkarlıq və orkestr yazı dəsti-xətti ilə sıx qarşılıqlı əlaqəsini müəyyən etmişlər"*.

Məntiqi şəkildə qurulmuş kitabın ikinci fəsli Fikrət Əmirovun simfonik muğamları, xüsusilə bəstəkarın əsərlərinin orkestrləşməsində millilik xüsusiyyətləri ilə bağlıdır. F.Əmirovun simfonik muğamlarına xas olan düşüncə yeniliyinin özünəməxsus orkestr səslənməsində ifadə olunduğunu açıqlayan F.Əlizadə yazır: *"Orkestr üslubu iri həcminə və genişliyinə görə muğamın estetik mahiyyətini dəyişir, ona təfəkkür və düşüncə tərzi, fəal hərəkətli xüsusiyyətlər bəxş edir.*

*İnkişaf zamanı musiqi fikrinin yığcamlaşması, təfəkkürün və inkişaf əlaqələrinin özünəməxsus "axını" musiqi formasının bölmələri arasında daha böyük təzad yaradır".* Eyni zamanda F.Əlizadə F.Əmirovun simfonik yaradıcılığında təmiz tembrin davamçısı kimi çıxış etməsini vurğulayaraq, bəstəkarın mövzunun təkrar səslənməsində sadə tembri "intonasiya ilə oxumaq"la yanaşı, çox zaman tembr uyğunlaşmasına müraciət etməsini və tembr sərbəstliyinin mümkün qədər qorumağa nail olmasını da ətraflı şəkildə izah edərək, fikirlərini əsaslandırır.

Kitabın üçüncü fəsli "Leyli və Məcnun"dan Üçüncü simfoniyaya (Qara Qarayevin orkestr üslubu məsələsi haqqında)" adlanır. İlk dəfə olaraq, Q.Qarayevin orkestr təfəkkürünün təkamülünün təkanverici qüvvələrinin müəyyən edilməsinə cəhd edən F.Əlizadə bu istiqamətdə orkestrləşməni bir neçə mərhələ üzrə araşdırır:

1. Orkestrləşmədə musiqi ifadəliliyinin vasitələrindən biri kimi: xarakterizəedici amil;
2. Orkestrləşmədə formalaşdırıcı amil kimi;
3. Musiqi tamlığının məna və quruluş xüsusiyyətlərini cəmləşdirən orkestrləşmə;
4. Orkestr bütün əsərin ideyasını şəffaflaşdıran amil kimi.

F.Əlizadə Azərbaycan simfonik musiqisinin inkişafı ilə bağlı fikirlərini yekunlaşdıraraq, Fikrət Əmirovun və Qara Qarayevin simfonik əsərlərində mövcud olan yaradıcılıq axtarışlarının klassik simfonik ənənəyə və Azərbaycan musiqi sənətinə eyni dərəcədə aid olan yeni ifadə vasitələrinin yaradılmasında nəzərə çarpan özünəməxsusluq olduğunu açıqlayır. Bu barədə F.Əlizadə yazır: *"Parlaq çalarlı şərq xüsusiyyətlərinin mənimsənilməsi və Avropa klassik ənənəsinin sərbəst şərhi uzaq, əvvəllər əlaqəsi olmayan mədəniyyətlərin bədii yaradıcılığının qütblərini yaxınlaşdırdı. Onların üzvi əlaqəsi nəticəsində ilk simfonik muğam və ilk şərq dodekafonik simfoniyası yarandı".* Fikrət Əmirovun simfonik muğamlarının təhlilinin nəticəsi kimi, F.Əlizadə bəstəkarın yaradıcılığının üslub bütövlüyünü Şərq monodiyası və Avropa polifoniyası ilə uyğunlaşdırmada olduğunu, bəstəkarın partituralarında tembr rəngarəngliyinin orkestr yazı texnikası ilə üzvi surətdə birləşdiyini elmi cəhətdən təsdiqləmişdir. Qara Qarayevin simfonik orkestrin polifonik musiqi təfəkkürünü tembr əsası kimi qəbul etməsini açıqlayan F.Əlizadə, onun dəyişməz milli xüsusiyyətlərini müasir bəstəkar yazısının hərtərəfli imkanları ilə birləşdirərək, özünəməxsus orkestr üslubunu yaratmasını mühüm amil kimi dəyərləndirmişdir.

Kitabda F.Əlizadənin müxtəlif mövzulu elmi məqalələri də verilmişdir. Bu məqalələrdə bəstəkarın elmi araşdırmaları ilə yanaşı, fərdi mülahizələri, düşüncələri, xatirələri də üstünlük təşkil edir.

"Muğam sənəti dünya musiqisi kontekstində" məqaləsində Firəngiz xanım muğam sənətinə bir filosof kimi yanaşır, onun dərinliklərinə nüfuz edir. XXI əsrdə dinamik şəkildə qloballaşan dünyamızda, "Şərq-Qərb" problemlərinin yenidən üzə çıxdığı bir dövrdə muğam sənətinin bir çox problemlərini araşdıraraq ətraflı nəzəri təhlil verir.

"Üzeyir Hacıbəyli və Qara Qarayev" məqaləsində o, dahi Üzeyir bəyin zəngin fəaliyyətini müəllimi Qara Qarayevin yaradıcılıq yolu ilə müqayisə edir.

"Qara Qarayevin düşündürən musiqisi", "Nizami irsi Azərbaycan bəstəkarlarının yaradıcılığında", "Yüksəliş", "Əbədiyyətə qovuşmaq" və bir sıra məqalələrdə F.Əlizadə özünün araşdırmalarını, təcrübəsi əsasında əldə etdiyi fikirlərini irəli sürür.

Kitabı tamamlayan "Qarabağ Azərbaycandır!" sərlövhəli məqalə F.Əlizadənin son illərdə ölkəmizdə baş verən ictimai-siyasi hadisələrə vətənpərvər vətəndaş, dərin təfəkkürə malik bəstəkar kimi yanaşmasının göstəricisidir. Burada F.Əlizadənin UNESCO-nun "Sülh artisti" kimi bu təşkilatın rəhbərliyinə ingilis dilində müraciəti verilmiş, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın tarixi abidələrinin qorunmasının vacibliyi vurğulanmışdır. Bu məqalə doğma Azərbaycanın musiqi mədəniyyətini dünya səviyyəsində tanıdan, təbliğ edən bir Sənətkarın Vətən eşqinin əsl nümunəsidir.

Kitabın hər bir səhifəsi Firəngiz Əlizadənin musiqimiz haqqında apardığı tədqiqatların əsas qayəsini özündə ehtiva edir. Geniş və hərtərəfli məzmununa görə bu kitab professional musiqiçilər, geniş oxucu kütləsi üçün maraqlı vəsait əhəmiyyəti kəsb edir.